ƏDƏBİYYAT QƏZETİ 25 dekabr 2021-ci il



# AYB-də "Nizami" və "Bəxtiyar Vahabzadə" mükafatları təqdim edildi





Dekabrın 20-də Azərbaycan Yazıçılar Birliyində "Bəxtiyar Vahabzadə" və "Nizami" mükafatları təqdim edilib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar gökəmli heykəltəraş Şərəf Şərəfovun yaradıcılığı haqqında danışaraq, onun öz fəaliyyətilə Azərbaycan mədəniyyətinə böyük töhfələr verdiyini vurğulayıb. Bu münasibətlə Şərəf Şərəfovun Yazıçılar Birliyinin "Nizami" müklafatına layiq görüldüyünü bildirən AYB sədri onu tədbir iştirakçıları adından təbrik edib. Şərəf Şərəfov belə bir dəyərli mükafata layiq görülməkdən fəxarət hissi duyduğunu bildirərək, Yazıçılar Birliyinin rəhbərliyinə minnətdarlıq edib. Sonra Xalq yazıçısı Anar Adil Cəmilin yaradıcılığı haqqında söz açıb. Tanınmış şair Adil Cəmilə ədəbi fəaliyyətinə, "Manas" haqqında dastan-poemasına görə "Bəxtiyar Vahabzadə" mükafatı təqdim edilib. Adil Cəmil mükafatı yüksək qiymətləndirdiyini dilə gətirərək yaradıcılığına verilən dəyər üçün Yazıçılar Birliyinin rəhbərliyinə təşəkkür edib.

**AYB.az**